| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | HIST395, Türk Xalqları Tarixi-2, 6 AKTS |
| | **Departament** | Tarix və Arxeologiya departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/26-ci tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Dos.Dr. Telman Nüsrətoğlu Quliyev |
| | **E-mail:** | telman.guliyev@khazar.org |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | |
| | **Məsləhət saatları** | **Müəllimin təyin etdiyi vaxtda** |
| **Prerekvizitlər** | **Türk Xalqları Tarixi-1** | |
| **Tədris dili** | **Azərbaycan dili** | |
| **Fənnin növü (məcburi, seçmə)** | **Məcburi** | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas ədəbiyyat:se**<br>1. Telman Nüsrətoğlu- Əkbər Nəcəf, Türk Dövlətləri və Mədəniyyətləri Tarixi, Bakı, Xəzər Universiteti Nəşriyyatı , 2023<br>2. Telman Nüsrətoğlu , Rusiyanın Azərbaycan Siyasəti, İstanbul, 2012<br>3. Telman Nusretoğlu, Osmanlı Hariciyesinin Güney Kafkasya Raporıları, Ankara, 2021<br>4. Jean-Paul Roux, Türklerin Tarihi, Kabalcı Yayınevi, İstanbul, 2010<br>5. Sina Akşin, Kısa Türkiye Tarihi, İstanbul, 2017(pdf)<br>6. Stanford J. Shaw, Osmanlı İmparatorluğu ve Modern Türkiye, İstanbul, 2008<br>**Əlavə ədəbiyyat**<br>1. Bernard Lewis, Modern Türkiye'nin Doğuşu<br>2. Kürşat Yıldırım, Doğu Türkistanın Tarihi Coğrafyası (pdf).<br>3. Doğu Türkistan ve Uygur Türkleri: Dünü, Bugünü ve Yarını.(pdf)<br>4. Rauf Orbay, Cehennem Değirmeni I-II. | |
| **Kursun vebsaytı** | www.azerbaijan.az<br>www.aztarix.azeriblog.com<br>www.azerbaycanli.org | |
| **Kursun təsviri** | Türk Xalqları Tarixi-2 dərsində; tədris programında Osmanlı dövlətinin dağılma dövrü, dağılmanın səbəbləri, daxili və xarici siyasi proseslər, imperiyanın tərkibindəki xalqların həyat tərzi, böyük dövlətlərin Osmanlılar üzərindəki politikaları və dağıtma planları, Osmanlıdakı muasirləşmə və islahat təşəbbüsləri, Osmanlı dövlətinin son dövrlərində ortaya çıxmış ideologiyalar, siyasi təşəbbüslər, cəmiyyətlər və partiyalar, Qurtuluş savaşı və Türkiyə cümhuriyətinin quruluşu prosesi, Türkiyə tarixi, Qafqaz, Mərkəzi Asiya, Qazaxıstan,Volqaboyu, Ural ətrafı və Sibir xanlıqlarının XIX və XX əsrin əvvəllərindəki vəziyyəti, Qafqaz və Türkistanın Rusya tərəfindən işğalı, Rus inqilablarından sonra türk xalqlarında milli hərəkat, türk xalqlarının SSRİ-nin tərkibindəki dövrdə, SSRİ-nin süqutu ilə | |

| | | | |
|---|---|---|---|
| | müstəqil türk dövlətlərinin yaranması və onların həyat tərzini öyrənməklə türk xalqlarının həyatında baş vemiş siyasi, iqtisadi sosialoji, hərbi ideoloji, etnik və mədəni proseslərin gedişini ümumdünya tarixi ilə sıx vəhdət təşkil etməklə öyrənilməsi və tələbələrdə müxtəlif dövr tarixi hadisələrinə düzgün və tənqidi yanaşma, obyektiv qiymətləndirmə, məntiqi müqayisələr aparma bacarıqları və vərdişləri formalaşdırmaq. | | |
| **Kursun məqsədləri** | Geniş coğrafi areala yayılmış Türk xalqlarının tarixi haqqında məlumat verməklə ümumdünya tarixində özünəməxsus nüfuzlu bir mövqeyə sahib olduğunu ortaya qoymaq, Türk xalqlarının tarixi keçmişinin qavranılması üçün zəruri olan düşünmək, analitik yanaşma vərdişlərini inkişaf etdirmək; tələbələrdə tarixən Azərbaycan türkləri ilə ortaq mədəniyyət formalaşdırmış xalqların tarixini dərindən öyrənmək. Türk xalqlarının tarixinə maraq yaratmaq; ümumtürkçülük ideyasını formalaşdırmaq; yazılı və şifahi ünsiyyət, diskussiya, dialoq həmçinin tədqiqat aparmaq, qrup halında işləməyi formalaşdırmaq. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **Fənnin ümumi tədrisi prosesində tələbələrdə:**<br>-Kursun problemləri, tarixi prosesləri seçməyi bacarmalı;<br>-Tarixi faktlar içərisində ən əsaslarını seçməyi bacarmalı;<br>-Tarixi prosesləri müqayisə etmək bacarığını formalaşdırmaq;<br>- Öz biliklərini məntiqi çatdırmağı bacarmaq. | | |
| **Tədris metodları** | **Mühazirə** | **X** | |
| | **Qrup müzakirəsi** | **X** | |
| | **Praktiki tapşırıqlar** | **X** | |
| | **Praktiki məsələnin təhlili** | **X** | |
| | **Digər** | **X** | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%), bal** |
| | **Aralıq imtahanı** | **Aprel** | **35 bal** |
| | **Davamiyyət** | **Semestr ərzində** | **5 bal** |
| | **Aktivlik** | **Semestr ərzində** | **5 bal** |
| | **Yoxlama yazı işi ( quiz)** | **Aprel ayının əvvəli**<br><br>**Mayın ortası** | **5+5=10 bal** |
| | **Qrup müzakirələri** | **Aralıq imtahanına qədər** | **5 bal** |
| | **Final imtahanı** | **İyun** | **40 bal** |
| | **Yekun** | | **100 bal** |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Aktivlik**<br>Dərslərdə, diskussiyalarda, prezentasiyalarda və elmi məşğələlərdə iştirak etmək.<br>**Davamiyyət**<br>Tələbələr dərslərdə mütləq iştirak etməlidirlər. Tələbələr müxtəlif səbəblərdən dərslərdə iştirak edə bilmirlərsə, (xəstəlik, ailə vəziyyəti və s.) bunu dekanlığa | | |

| | |
|---|---|
| | bildirməlidirlər. Dərslərin 25%-də iştirak etməyən tələbə imtahana girə bilməz.<br>**Dərsə gecikmə**<br>Dərsə 10 dəqiqə gecikən tələbəyə qayıb yazılır. Ancaq, tələbə dərsə buraxılır.<br>**Kurs işi**<br>Semestr ərzində keçilən mövzular arasından tələbənin öz seçimi nəticəsində müəyyən olunan mövzuda kurs işi hazırlanacaq.<br>**Kurs işi qaydaları**<br>Yazı işinə aid qaydalar:<br>1.İş ayrıca vərəqlərdə yazılmalıdır. Kağızın formatı A4, şirifti 14, interval 1, işin həcmi 5-10 səhifə olmalıdır.<br>2. Üz vərəqdə (titul hissəsi) tələbənin fakültəsi, ixtisası, adı və soyadı, fənnin adı, müəllimin adı və mövzunun adı yazılmalıdır.<br>3.Vərəqin bir üzü yazılmalı, vərəqə nömrələr qoyulmalıdır.<br>4.İş aydın yazılmalı, fikirlərin abzaslara bölünməsi məntiqi olmalıdır, hər yeni fikirdə abzasdan istifadə edilməlidir. İşin girişi və nəticəsi olmalıdır.<br>5.İş yazılarkən mənbələrə istinad edilməlidir. İstinad qaydaları müəllim tərəfindən təqdim olunacaqdır.<br>6.Sonda istifadə olunmuş ədəbiyyatın siyahısı əlavə edilməlidir<br>**Prezentasiya işinə aid qaydalar:**<br>- Tələbələr müəllim tərəfindən onlara öncədən verilən mövzu (kurs işi ilə eyni mövzu olacaq) əsasında fərdi şəkildə prezentasiyalarını təqdim etməlidirlər.<br>- Prezentasiya ən az 20 slayd ən çox 25 slayd olmalıdır.<br>- Hər tələbəyə təqdimat üçün 15 dəqiqə vaxt veriləcək.<br>- Prezentasiya mövzunu tam əhatə etməlidir, əks halda bal çıxılacaq.<br>**İmtahanlar**<br>Aralıq və final imtahanlarına düşəcək mövzular tələbələrə əvvəlcədən verilir. Aralıq imtahanının sualları final imtahanında təkrar edilmir..<br>**İmtahan qaydaları**<br>Aralıq və yekun imtahanları işində tələbə tərəfindən və bir-birindənköçürülmə qadağandır. Bu qaydaya riayət etməyən tələbələrin imtahan işi ləğv olunur və tələbənin qiyməti sıfırlanır. İmtahan müddəti 90 dəqiqə müəyyənləşdirilib. İmtahan tapşırıqlarının sayından, çətinlik dərəcəsindən, ana dilində olub-olmamasından, suala verilən cavabın həcmindən və s. asılı olaraq müəllim tərəfindən təklifolunarsa, departament rəhbəri ilə razılaşdırılıb dəyişdirilə bilər.<br>**Fənni bitirmək qaydası**<br>Universitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsiri olantələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>**Tələbələrin davranış qaydaları**<br>Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq qadağandır. Həmçinin tələbələr arasında icazəsiz müzakirələr qadağandır. Dərs zamanı mobil cihazlardan istifadə etmək olmaz. Online dərsi yalnız müəllim özü başlada bilər, tələbələr dərsi |

| | | | |
|---|---|---|---|
| | | başlada bilməzlər. | |
| **Cədvəl (dəyişdirilə bilər)** | | | |
| **Həftə** | **Tarix (planlaşdırılacaq)** | **Fənnin mövzuları** | **Dərslik / Tapşırıqlar** |
| 1 | | **Mövzu:** Türk Dünyasında Zehniyyət Dəyişməsi və Müasirləşmə qavramı. Qərb təsəvvürü. Müstəmləkə və istismar. Türk Dünyasında modern kimliyinin formalaşması. Türk dünyasının ən böyük dövləti olan Osmanlıda klassiq dövlət nizamının dəyişməyə başlaması. | Telman Nüsrətoğlu-Əkbər Nəcəf , Türk Dövlətləri və Mədəniyyətləri Tarixi, s. 707-762. |
| 2 | | **Mövzu:** II Mahmud və III Səlimin islahatları. II Məşrutiyyətə qədər baş verən əsas hadisələr. İttihad və Təraqqi partiyasının meydana çıxması. Soltan II Əbdülhəmidin hakimiyyətdən uzaqlaşdırılması, Trablusqərb, Balkan və Birinci dünya müharibələri dövründə Osmanlı . | Sina Akşin, Kısa Türkiye Tarihi , s.67-109 |
| 3 | | **Mövzu:** Şərqi Türkistanın tarixi və coğrafiyası. XVIII-XX əsrlərdə Şərqi Türkistanda baş verən əsas proseslər. Şərqi Türküstan və Uyqur məsələsinin əsas istiqamətləri. | https://ihh.org.tr/public/news/4/4462/dogu-turkistan-raporu---nurettin-izbasar.pdf |
| 4 | | **Mövzu:** Çarizmin Qafqaz və Türküstanı işğal etməsi və müstəmləkəçilik siyasəti . Türk xalqları birinci dünya müharibəsi illərində. Erməni terror təşkilatlarının Cənubi Qafqaz və Anadoludakı fəaliyyətləri. | Telman Nüsrətoğlu, Rusiyanın Azərbaycan siyasəti müvafiq bölümlər. s.5-75. |
| 5 | | **Mövzu:** Birinci dünya müharibəsinin sonu.Osmanlının məğlubiyyətinin nəticələri. Atatürkün rəhbərliyi altında milli müqavimət hərəkatının başlaması. | Sina Akşin, Kısa Türkiye Tarihi , s.114-156 |
| 6 | | **Mövzu:** XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan neftinin dünya iqtisadiyyatındakı yeri. Bakı neft sənayesi. Roltşilt və Nobel qardaşları Azərbaycanda. Osmanlı dövlətinin Qafqaz siyasəti. Şəhbəndərliklərin fəaliyyətləri. Azərbaycanla Anadolu türkləri arasındakı münasibətlər. | T.Nusretoğlu, Roltşiltlər və Bakü Petrolü ( məqalə) , T. Nüsrətoğlu , Osmanlı Diplomatiyasının Cənubi Qafqaz Hesabatları , Bakı 2023, s.9-96, Mühazirə mətnləri |
| 7 | | **Mövzu:** Təşkilat-ı Mahsusanın Qafqaz misyası. Azərbaycanın milli komitə və cəmiyyətlərinin istiqlal mübarizəsi. Qafqaz İslam Ordusunun təşəkkülü və Azərbaycanın Bolşeviq- Daşnaq işğalından xilas edilməsi. | Mühazirə mətnləri |
| **ARALIQ İMTAHANI** | | | |

| | | | |
|---|---|---|---|
| 8 | | **Mövzu;**M.K. Atatürk və Ənvər paşa münasibətləri. Ənvər Paşanın Rusiya və Türküstandakı fəaliyətləri. Atatürkün Samsuna gedişi. Ərzurumvə Sivas konfransları. Qurtuluş savaşının qələbəylə nəticələnməsi və Lozan müqaviləsi. | Sina Akşin , Kısa Türkiye tarihi , s.156-182 |
| 9 | | **Mövzu:** Türkiyə cümhuriyyətinin elan edilməsi və Cümhuriyyət dövrü həyata keçirilən əsas islahatlar. | Sina Akşin, Kısa Türkiye Tarihi , s.182-265 |
| 10 | | **Mövzu:** XX əsrin əvvəllərində Kazan, Bakı və Türküstanda milli fəaliyətlər. İ.Gaspıralı və Tərcüman qəzeti. Yeni üsul məktəblərin açılması. Rusya müsəlmanları qurultayları. | Mühazirə mətnləri . |
| 11 | | **Mövzu:** XX əsrin ilk yarısında Sovet rejimi tərkibindəki Türk cümhuriyyətlərində siyasi, iqtisadi və mədəni vəziyyət. Türk xalqları represiya dövründə. | Mühazirə mətnləri. |
| 12 | | **Mövzu:** Türkiyə İkinci dünya müharibəsi illərində. İnönünün hakimiyyəti illərində Türkiyə. Demokrat Partiyanın quruluşu və daxili siyasi münasibətlər. Türkiyə- Sovet münasibətləri. | Sina Akşin, Kısa Türkiye Tarihi , s. 265-297. Ramin Qurbanov. Türk xalqlarının tarixi müvafiq bölmələr |
| 13 | | **Mövzu:** XX əsrin ikinci yarısından müstəqillik dövrünə qədər Sovet hakimiyyəti altında yaşayan Türk xalqlarının ədəbiyyat, sənət və təhsil həyatı. Sovet rejiminin dağılmağa başlaması və Türk cümhuriyyətlərində müstəqilliyə gedən proseslər. | Mühazirə mətnləri |
| 14 | | **Mövzu:** Türkiyənin NATO-ya üzv olma prosesi. ASALA və PKK terror təşkilatlarının Türkiyəyə qarşı törətdiyi terror aktları. Türkiyə siyasəti və iqtisadiyyatında çağdaş durum | Sina Akşin , Kısa Türkiye Tarihi, s. 276-319 |
| 15 | | **Mövzu:** Türk dünyasındakı çağdaş siyasi, iqtisadi, mədəni durum. TDT və birlik arayışları. Muasir dövr Türk xalqlarımədəniyatinə dair qeydlər. | Mühazirə mətnləri |
| **FİNAL İMTAHANI** | | | |

**Prezentasiya mövzuları:**

1. Azərbaycan Xanlıq dövlətləri və Rusiyanın siyasi, hərbi, iqtisadi münasibətlərinin təsviredilməsi.
2. Yeniçeri Ordusunun ləğv edilməsinin siyasi-hərbi nəticələri
3. Krım xanlığı və onun Rusiya tərəfindən işğalı
4. Qazan xanlığının Rusiya tərəfindən işğalı və Türk tarixindəki nəticələri
5. Rus işğalı sonrası Kırımın etno-demografiq durumunun dəyişdirilməsi prosesi.
6. XX əsrin əvvəllərində Azərbaycanda dərs deyən Türkiyəli müəllimlər.
7. Şərq Xalqları Qurultayı Azərbaycan mətbuatında.
8. Rusya Dövlət dumasının "Müsəlman fraksiyası"
9. Ənvər paşanın Türküstandakı fəaliyətləri.
10. SSRİ- nin Türk xalqlarının sosial-iqtisadi həyatı (1953-1964)
11. Çarizmin Mərkəzi Asiyanı işğal etməsi və müstələkəçilik siyasəti
12. Gənc türklər və Balkan müharibələri. XIX əsrin sonu XX əvvəli)
13. Orta Asiya uğrunda Rusiya və İngiltərə mübarizəsi
14. Qafqazda çar Rusiyasının siyasəti. Hərbi–inzibati idarəetmə
15. Osmanlı imperiyası XIX əsrin birinci yarısında
16. Rusiya Dumasındakı Türk deputatların fəaliyyəti
17. Birinci dünya müharibəsi və Azərbaycan-Anadolu münasibətləri
18. Rus əsarətində yaşayan Türk xalqları Birinci Dünya müharibəsi illərində
19. 1917-ci il fevral inqilabından sonra Orta Asiya,Volqaboyu, Sibir və Krımda ictimai siyasi vəziyyət
20. Türk xalqları Represiya dövründə
21. Kırım Tatarlarının vətənlərindən sürgün edilməsi
22. Türk xalqlarının mədəniyyəti Sovet dövründə.Milli kimlik və tarix problemi.
23. Türküstanda Basmaçılar hərəkatı
24. XIX əsrin sonu XX əsrin əvvəllərində Kazan və Orta Asiyada Cədidçilik hərəkatı
25. İ. Qaspıralı və Tərcüman qəzeti.
26. Doğu Türkistanın tarixi coğrafiyası
27. Z.V.Toqanın həyatı və əsərləri
28. İsa Yusif Alptekin və Doğu Türküstan
29. Sultan Abdulhamid və Fələstin məsələsi
30. Atatürkün Mosul-Kərkük siyasəti.